# Türkiyənin "Hurriyet Daily News" qəzetində Xocalı soyqırımı ilə bağlı məqalə dərc edilib

Türkiyənin məşhur "Hurriyet Daily News" qəzetində Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin Xocalı faciəsinin 24-cü ildönümü ilə bağlı məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, müəllif məqalədə Azərbaycan xalqı üçün yanvar və fevral aylarının böyük faciə kimi yadda qaldığını qeyd edib. 24 il bundan əvvəl baş vermiş Xocalı faciəsinin insanlığa qarşı qətliam olduğunu bildirən A.Suver 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələrinin əhalisi azərbaycanlılardan ibarət olan Xocalı şəhərini bir gecənin içərisində darmadağın etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, həmin gün Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə alıb. Ermənilər ən müasir silahlarla hücum edərək Xocalı şəhərini yerlə-yeksan ediblər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılıb, yandırılıb və insanlar xüsusi qəddarlıqla qətlə yetirilib. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılanlar çoxluq təşkil edirdi. Bu soyqırımı nəticəsində 613 nəfər öldürülüb ki, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca idi. Səkkiz ailə tamamilə məhv edildi, 487 nəfər şikəst oldu ki, onlardan da 76-sı uşaqdır. Bundan əlavə, 1275 nəfər əsir götürülüb, 150 nəfər itkin düşüb. Bu faciə zamanı insanlar amansızcasına yandırılaraq, gözləri çıxardılaraq öldürülüb. Xocalı soyqırımını ermənilər planlı şəkildə və qəddarlıqla həyata keçiriblər.

Xocalının təpələri və məntəqələri ilə strateji əhəmiyyətə malik məkan olduğunu vurğulayan müəllif bildirib ki, Ermənistanın hərbi məqsədlərindən biri bu əraziləri işğal etmək idi. Ermənistan silahlı qüvvələri tərəfindən şəhər tamamilə yandırılıb. Xocalının digər ərazilərlə əlaqəsi kəsilib. Ermənistan ilə Azərbaycan arasında müharibə 1994-cü ilə qədər davam edib və həmin il atəşkəs haqda saziş imzalanıb. Lakin ötən müddətdə Qərb dövlətləri Xocalıda törədilmiş amansız dəhşətlərlə bağlı hər hansı nəzərəçarpan fəaliyyət göstərməyib. Daha sonrakı illərdə BMT, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası bu ərazilərin Ermənistan tərəfindən işğalını təsdiq ediblər.


DAILY NEWS

HOME | TURKEY | ECONOMY | WORLD | SPORTS | LIFE | ARTS/CULTURE | OPINION

Sub Categories: - HOMEPAGE / CONTRIBUTOR

**The commemoration of the 24th anniversary of the Khojaly Massacre**

AKKAN SUVER

For the people of Azerbaijan, the months of January and February of each passing year have become a traumatic anniversary of bloody days and dark weeks.

This huge tragedy of the Khojaly Massacre which took place 24 years ago left its indelible mark on the dark chapters of humanity.

On Feb. 26, 1992, Armenian forces slaughtered 613 Turks, including 83 children, 106 women and more than 70 seniors, in Khojaly County, located in the district of Nagorno-Karabakh in Azerbaijan. As a consequence of the lack of foresight and fomentation of the administration of the Union of Soviet Socialist Republics (USSR) and with full support of the 336th Mechanized Regiment of Soviets, the Armenians penetrated the Khojaly and practiced an unprecedented massacre there. Turks were exposed to inhumane practices regardless of their age or gender. It was proven that most of the victims had been burned to death and had their eyes carved out. Without a doubt it was not an ordinary act of murder.

Indeed, the possession of the named region located within the territories of Azerbaijan has been - de facto and de jure - acknowledged by international organizations.

The tension emerging in 1988 from the upheaval of Armenian residents in Nagorno-Karabakh aiming to separate this area from Azerbaijan indicated an escalation of irreversible nature. Upon the decision of the assembly, Nagorno-Karabakh was proclaimed to have been annexed to Armenia. However, the USSR declared its non-recognition against this unilateral act. Following this development, Azerbaijan reacted in the same way and declared to have lifted the autonomous status of Nagorno-Karabakh; this was a decision meant to be a re-annexation of the named region.

Buna baxmayaraq ötən 25 ilə nəzər salsaq Ermənistanın əslində tələb olunan heç bir qaydaya əməl etmədiyi açıq-aşkar görünür.

Müəllif Xocalı faciəsinin növbəti ildönümündə beynəlxalq cəmiyyətin bu dəhşətli hadisələrə gözübağlı qalmayacağına ümidvar olduğunu bildirib.

**AZƏRTAC**